

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 214 (21.624)

*12 noyabr 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilmişdir





Noyabrın 11-də Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmiş, sakinləri təbrik edərək demişdir: Hər bir yaşayış məntəqəsinin inkişafında müasir yol infrastrukturunun yaradılması vacib məsələdir. Çünki harada yol abaddırsa, orada həyat rahatdır. Bu gün yaşayış məntəqələrində insanlar avtomobildən istifadə edir. Bunun üçünsə, ilk növbədə, rahat yol olmalıdır. Bu amili nəzərə alan ölkə Prezidenti cənab İlham Əliyev 2014-cü il avqustun 27-də müvafiq Sərəncam imzaladı. Sərəncama əsasən Azərbaycanın ən böyük kəndlərindən biri olan Nehrəm kəndinin yolları yenidən quruldu. Yolun birinci hissəsinin açılışı 2015-ci il dekabrın 1-də həyata keçirildi. Bu gün isə yolun ikinci hissəsi istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Yoldan səmərəli istifadə etmək, onu qorumaq bundan sonra sakinlərin üzərinə düşən vəzifədir. Nehrəm kəndində yolun yenidən qurulması ilə yanaşı, ibadət yerləri və digər sosial obyektlər istifadəyə verilmiş, torpaq sahələrinin su təminatı yaxşılaşdırılmışdır. Hazırda kənddə yeni su və kanalizasiya sistemləri çəkilir. Bütün bu tədbirlərin həyata keçirilməsi Nehrəmdə insanların rahat yaşamasına xidmət edir.

Ali Məclisin Sədri bir daha sakinləri təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

Nehrəm bələdiyyəsinin sədri Tofiq Abutalıbov çıxış edərək demişdir ki, ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi muxtar respublikanın bütün yaşayış məntəqələrini inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Bu inkişafdan Nehrəm kəndinə də pay düşmüşdür. Artıq Nehrəm tarixinin yeni inkişaf dövrünü yaşayır. Son illər kənddə geniş abadlıq-quruculuq işləri aparılmış, xəstəxana binası, 3 tam orta məktəb, kənd mərkəzi, uşaq musiqi məktəbi, ticarət mərkəzi və digər sosial obyektlər istifadəyə verilmişdir. Kənd tamamilə qazlaşdırılmış, dayanıqlı elektrik enerjisi və müasir rabitə sistemi ilə təmin olunmuş, qapalı suvarma şəbəkəsi qurulmuşdur. Yolun yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır. Tofiq Abutalıbov həyata keçirilən tədbirlərə görə Nehrəm kənd sakinləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Sonra Ali Məclisin Sədri yolda görülən işlərlə maraqlanmışdır. Bildirilmişdir ki, 31 min nəfərdən çox əhalinin yaşadığı 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsinin uzunluğu 9,6 kilometrdir. Tikinti işləri zamanı yol yatağı genişləndirilərək yeni asfalt örtük verilmiş, 26 su keçidi qoyulmuş, 5,5 kilometrlik Nehrəm kənddaxili avtomobil yolu yenidən qurulmuşdur.

## Nehrəmdə yeni məscid tikilmişdir





Nehrəm kəndində tarixən elmin, təhsilin inkişafı ilə yanaşı, dini-mənəvi dəyərlərimizə də hörmətlə yanaşılmışdır. Kənddə bu gün də dini dəyərlərimiz qorunub yaşadılır, dindarlar üçün lazımi şərait yaradılır. Bu sahədə görülən işlərin davamı olaraq Nehrəm kəndində yeni məscid tikilmişdir.

Noyabrın 11-də Nehrəm kənd məscidi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Nehrəm kəndinin bu ərazisində əvvəllər də məscid olmuş, uzun illər azan səsi eşidilmiş, insanlar burada ibadət etmişlər. Bu gün isə kənddə yeni məscid tikilmiş, dindarlar üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri təşkilatçılara təşəkkür etmiş, dindarları və kənd sakinlərini təbrik edərək demişdir: İslam aləminin müqəddəs simvolları vardır. Peyğəmbərimiz, Qurani-Kərim və məscidlər İslam dininin üç əsas simvoludur. Məscidlər ibadət yeri olmaqla yanaşı, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır. Bu gün istifadəyə verilən məscid binası islami dəyərlər əsasında qurulmuşdur. Məsciddə İslam dini və mənəvi dəyərlərimiz gələcək nəsillərə olduğu kimi öyrədilməli, saf əməllər naminə ibadətlər olunmalıdır. Məscidlər müqəddəs yerlərdir. Bu səbəbdən də Nehrəm kənd məscidi mənəvi dəyərlərimizin yaşadıldığı yer kimi qorunmalı, təmiz saxlanmalıdır.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycanda sabitlik və inkişaf vardır. Ölkəmizin hər bir yerində quruculuq işləri aparılır. Görülən işlərin, mövcud inkişafın və sabitliyin əsası isə ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu gün ümummilli liderin yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir, hər bir vətəndaşa ölkəmizin inkişafından pay düşür. Hazırda dünyanın bəzi ölkələrində müharibələr gedir, məscidlər və dini abidələr dağıdılır. Lakin bu gün Azərbaycanda sabitlikdir, bütün sahələr inkişaf etdirilir, məscidlər, yollar və digər sosial obyektlər istifadəyə verilir, dini-mənəvi dəyərlərimiz qorunub yaşadılır.

Ali Məclisin Sədri bir daha dindarları və sakinləri yeni məscidin istifadəyə verilməsi münasibətilə təbrik etmişdir.

Kənd sakini, dindar Yusif Nağıyev minnətdarlıq edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası yeni inkişaf dövrünü yaşayır. 70 il Sovetlər Birliyi dövründə görülməyən işlər müstəqillik illərində Naxçıvanda həyata keçirilmişdir. Babək rayonunun Nehrəm kəndi də inkişaf edir, dəyişir. İstifadəyə verilən sosial obyektlər, çəkilən yol sakinlərin rahatlığını təmin edir. Bu işlərin davamı kimi məscid binasının istifadəyə verilməsi sakinlərin böyük sevincinə səbəb olub. Muxtar respublikada dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər göz önündədir. Ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Yusif Nağıyev həyata keçirilən tədbirlərə görə Nehrəm kənd dindarları adından minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları məscid binasında yaradılan şəraitlə tanış olmuşlar.

Bildirilmişdir ki, sahəsi 830 kvadratmetr olan məscid zal və minarədən ibarətdir. İki hissədən ibarət olan zalda qadın və kişilərin ayrı-ayrılıqda ibadət etməsi üçün şərait yaradılmış, məscidin daxili milli və dini ornamentlərlə, naxışlarla bəzədilmiş, divarlara Qurani-Kərimdən ayələr həkk olunmuşdur. Burada 570 nəfər eyni vaxtda ibadət edə bilər. Məsciddə yardımçı otaqlar da istifadəyə verilmiş, dəstəmaz yeri yaradılmış, elektrik, qaz və su xətti çəkilmiş, həyət abadlaşdırılmışdır.

Sonra məsciddə ilk namaz qılınmış, ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunmuş, ölkə Prezidentinə uzun ömür, cansağlığı arzulanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

12 noyabr Konstitusiya Günüdür

# Azərbaycanda mütərəqqi konstitusion islahatlar həyata keçirilir




***Konstitusiya hər bir ölkədə Əsas Qanun kimi ali hüquqi qüvvəyə malikdir. Dövlətin təməl prinsiplərini, siyasi, hüquqi və sosial-iqtisadi əsaslarını təsbit edən bu ali sənəd vətəndaşların hüquq və azadlıqlarına zəmanət verir, ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Tarixdən məlum olduğu kimi yeni yaranan, müstəqilliyə qovuşan və ya köklü siyasi-iqtisadi dəyişikliklərin həyata keçirildiyi ölkələrdə ilk vəzifələrdən biri məhz dövrün tələblərinə uyğun Konstitusiyanın qəbulu olmuşdur.***

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı nəinki Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, həm də onun dövlətçiliyinin xilasında müstəsna rol oynadı. Ümummilli lider öz qətiyyəti, dərin zəkası, zəngin dövlətçilik təcrübəsi və böyük siyasi nüfuzu sayəsində xilaskarlıq missiyasına başladı. Təsadüfi deyil ki, 1995-ci il iyunun 5-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası yaradıldı. Qeyd edək ki, bu ali sənədin müasir dəyərləri özündə ehtiva edən mükəmməl formada qəbul olunmasını reallaşdırmaq üçün ulu öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı. ***“Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”***, – deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdü. Konstitusiya layihəsi hazırlandıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə onun açıq müzakirələrinin keçirilməsi bu ümumxalq əhəmiyyətli sənədin ən təkmil formada ərsəyə gətirilməsinə şərait yaratmışdır. Bütün müzakirələrin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olunmuşdur.

Ulu öndərin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsinin qəti qələbəsini əks etdirən hadisə idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir şanlı səhifə yazıldı, dahi rəhbər Heydər Əliyevin uzunmüddətli gərgin əməyinin məhsulu olan Konstitusiya öz demokratikliyi, humanistliyi və dolğunluğu ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı, xalqımızın demokratik dövlət qurmaq və dünya arenasında layiqli yer tutmaq istəyini nümayiş etdirdi. Məhz bu tarixi hadisədən sonra Azərbaycanda hüquqi islahatlara başlanıldı. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***“Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”.***

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyamızın ali dəyərlərini əks etdirir.

Demokratiya yolu ilə gedən Azərbaycan Respublikasında hakimiyyətin yeganə mənbəyinin Azərbaycan xalqı olması, sərbəst və müstəqil öz müqəddəratını həll etməyin və öz idarəetmə formasını müəyyən etməyin xalqın suveren hüququ kimi təsbit edilməsi, Azərbaycan xalqının Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan Azərbaycan Respublikasının vətəndaşlarından ibarət olması Konstitusiyamızda öz əksini tapmışdır. Konstitusiyamızda ilk dəfə olaraq Azərbaycanın demokratik, hüquqi, dünyəvi, unitar respublika olması təsbit edilmişdir. Konstitusiyada dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkili müəyyən edilmiş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyət göstərməsi və öz səlahiyyətləri çərçivəsində müstəqil olmaları təsbit edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin hər hansı maraqlara deyil, məhz vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcısı olan şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan etmişdir. Bu baxımdan Konstitusiyamızın üçdəbir hissəsi əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmiş, Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsildə insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyil ki, Konstitusiyada təsbit edilmiş hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq məhkəmə hakimiyyəti orqanları həm də keyfiyyətcə yeni funksiyalar əldə etmişdir.

Ötən dövr ərzində qanunvericilik sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi Azərbaycan Respublikasının Konstitusiyasından qaynaqlanan bir sıra məcəllələr – Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual, cəzaların icrası, mülki, mülki-prosessual, inzibati xətalar, ailə, əmək, vergi, inzibati prosessual və digər məcəllələr, həmçinin “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Notariat haqqında” və bir sıra digər qanunlar qəbul olunmuşdur.

Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan yeni bir institutun – Konstitusiya nəzarəti təsisatının yaradılması olmuşdur. Qeyd edilməlidir ki, Konstitusiya nəzarətinin əsas məqsədi Konstitusiyanın aliliyinin təmin edilməsi və Konstitusiya ilə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsidir. Bu baxımdan ali Konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi normativ-hüquqi aktların Konstitusiyaya və hüquqi iyerarxiyada özündən üstün qüvvəyə malik aktlara uyğunluğunun müəyyənləşdirilməsi, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Konstitusiyanın və qanunların şərh edilməsi, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi kimi mühüm səlahiyyətlərə malikdir.

Konstitusiyamızın gətirdiyi digər yeniliklərdən biri də ilk dəfə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin statusunun konstitusion səviyyədə təsbit edilməsi olmuşdur. Məhz milli Konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı – bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır.

Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas olmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulmuş, 29 dekabr 1998-ci ildə Konstitusiya Qanunu kimi qəbul edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkili, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmişdir. Bu Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə ali vəzifəli şəxs institutu təsis edilmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasından fərqli olaraq bu Konstitusiyada muxtar respublikanın statusu və onun Azərbaycan Respublikasının Konstitusiyası, Moskva və Qars beynəlxalq müqavilələri ilə müəyyən edilməsi daha aydın görünür. Hakimiyyət bölgüsü, mülkiyyət formaları əvvəlki Konstitusiyaya görə daha dəqiq və genişdir”.***

Tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunumuz demokratik, dünyəvi, hüquqi və unitar Azərbaycan dövlətinin əsaslarını təsbit edən mühüm və bitkin normativ sənəddir. Lakin qlobal miqyaslı sosial-siyasi və hüquqi yeniliklərin baş verdiyi, təhlükəsizlik məsələlərinin ön plana çıxdığı, dövlət idarəçiliyinin modern və daha səmərəli üsullarının tətbiq edildiyi, qanunvericilik prosesinin daim inkişaf etdiyi, dinamik olduğu və dövrün tələblərinə uyğunlaşdığı zaman Konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi daha mükəmməl əhəmiyyətə malik olur. Bu baxımdan Azərbaycan Respublikasının beynəlxalq arenaya inteqrasiyasının gücləndiyi və hüququn müasir inkişafı şəraitində Konstitusiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

2002-ci il avqustun 24-də ölkəmizdə ümumxalq səsverməsi – referendum keçirilmiş, ilk dəfə Konstitusiyanın, ümumilikdə, 24 maddəsinə 31 əlavə və dəyişikliklər edilmişdir. 2009-cu il martın 18-də ölkəmizdə yenidən ümumxalq səsverməsi – referendum keçirilmiş, ikinci dəfə Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişikliklər edilmişdir. Bu il keçirilən ümumxalq səsverməsi – referendumla isə Konstitusiyanın 23 maddəsinə əlavə və dəyişikliklər edilmiş, eləcə də yeni 6 maddə əlavə olunmuşdur.

Hazırda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, qanunvericilik sahəsində əldə olunan nailiyyətlər mənbəyini Azərbaycan Konstitusiyasından alan möhkəm hüquqi bazaya malikdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən dövrdə qanunçuluğun təkmilləşdirilməsi işində qazanılan uğurları çıxışlarının birində belə ifadə etmişdir: ***“Keçən illər ərzində Konstitusiya humanist, dinamik və realist bir sənəd olduğunu sübut etmişdir. Onun əhatə etdiyi bütün sahələrdə – hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, siyasi həyatın demokratikləşdirilməsi, insan haqlarının və azadlıqlarının təmin olunması və sair ilə bağlı mühüm irəliləyişlər baş verir. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir”.***

*Bu gün böyük qürur hissi ilə söyləyə bilərik ki, möhkəm hüquqi bazaya malik olan Azərbaycan Respublikasının Konstitusiyası hələ uzun illər Azərbaycan Respublikasının sabitlik şəraitində davamlı inkişafını təmin etməyə, müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin mətbuat xidməti***

# Konstitusiya Günü qeyd olunub

***Naxçıvan Dövlət Universitetində Konstitusiya Gününə həsr olunmuş elmi konfrans keçirilib.***

Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Konstitusiyanın ali qanun kimi ölkə vətəndaşlarının taleyindəki rolundan danışıb.

Hüquq fənləri kafedrasının müəllimi Yunis Xəlilov “Azərbaycan Respublikasının ilk milli Konstitusiyası demokratik dəyərlərin əsas təminatçısı kimi” adlı məruzəsində bildirib ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş Konstitusiyamız dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı hüquq islahatlarının əsasıdır.

Vurğulanıb ki, ulu öndər Konstitusiyamızın hazırlanmasında həm milli, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürüb. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk milli Konstitusiyası qəbul olunub.

Məruzədə Konstitusiyamızın qəbulundan sonra ölkəmizdə aparılan geniş qanunvericilik və məhkəmə-hüquq islahatlarından, Konstitusiya nəzarəti təsisatının, bələdiyyələrin yaradılaraq fəaliyyətə başlaması kimi yeniliklərdən, həmçinin 2002, 2009 və 2016-cı illərdə Əsas Qanuna edilən və Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin olunması, cəmiyyət həyatının müxtəlif sahələrinə dair normaların təkmilləşdirilməsini nəzərdə tutan müxtəlif əlavə və dəyişikliklərdən danışılıb.

Kafedranın baş müəllimi Şamxal Hüseynov “Azərbaycan Respublikası Konstitusiyası insan hüquq və azadlıqlarının təminatçısıdır” adlı məruzəsində qeyd edib ki, Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilib. Belə ki, Azərbaycan Respublikası Konstitusiya normalarını rəhbər tutmaqla insan hüquqları ilə bağlı bir sıra mühüm beynəlxalq konvensiyalara qoşulub, bu aktların keçirilməsindən irəli gələn qanunvericilik aktlarını qəbul edib.

Universitetin müəllimi Cahan Bayramova “Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası” adlı məruzəsində ölkəmizin müstəqillik uğrunda tarixboyu apardığı mübarizədən, millətimizin tarixi gələcəyi, tərəqqisi və inkişafı üçün böyük əhəmiyyət kəsb edən Konstitusiyanın hazırlanmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb.

**Nərmin CABBAROVA**

# Qəmbər Hüseynlinin 100 illik yubileyi qeyd edilib

***Noyabrın 11-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyi qeyd olunub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə muxtar respublikanın Bəstəkarlar Təşkilatının birgə keçirdikləri tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu il bəstəkar Qəmbər Hüseynlinin anadan olmasının 100 illiyi tamam olur. Bununla bağlı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında” 2015-ci il 2 dekabr tarixdə Sərəncam imzalayıb. Təsdiq edilmiş Tədbirlər Planına əsasən, muxtar respublikamızda Qəmbər Hüseynlinin 100 illik yubileyi ilə bağlı konfrans və bir sıra tədbirlər keçirilib. Bugünkü yubiley də Tədbirlər Planına əsasən keçirilir.





Qeyd olunub ki, görkəmli bəstəkar Qəmbər Hüseynli milli musiqi sənətimizə təkrarsız və özünəməxsus çalarlar gətirib, öz əsərləri ilə qəlbləri fəth edə bilib. Muğam və el havalarını, aşıq musiqisini, Azərbaycan poeziyasını dərindən mənimsəyən bəstəkar həm də fitri istedadı sayəsində gözəl mahnılar və romanslar müəllifi kimi tanınıb. O, professional musiqi tariximizə məhz mahnı bəstəkarı kimi daxil olub, bütün yaradıcılığı boyu bu janrda təkrarolunmaz əsərlər yaradıb. Müasirləri və bəstəkarın irsinin tədqiqatçıları qeyd edirlər ki, Qəmbər Hüseynli mahnı yaradıcılığında həmişə estetik prinsipləri diqqətdə saxlayırdı. Bəstəkar özü də qeyd edirdi ki, musiqi ilk notlarda dinləyicidə gözəllik duyğusu oyatmırsa, qəlbdə həyəcan yaratmırsa, bəstəkarlıq etməyə dəyməz. Yüksək zövq, musiqi ilə bərabər sözə də tələbkar olmaq onun əsas prinsiplərindən idi. Bəstəkarın musiqisində həmçinin melodiyaların şairanəliyi, ürəyə yatımlığı, zərifliyi və axıcılığı diqqəti cəlb edir. Onun mahnılarında melodiya mahnının əsas qayəsini təşkil edir. Yüksək ilham, harmoniya və orkestləşdirmə isə onun yaradıcılığının düsturudur. Buna görə də Qəmbər Hüseynlinin mahnıları və romansları bu gün də sevilə-sevilə dinlənilir.

“Bəstəkarın mahnılarını tanınmış Azərbaycan müğənniləri dəfələrlə özünəməxsus şəkildə ifa edib və etməkdədirlər. Onun mahnıları İran, Özbəkistan, Əfqanıstan və Türkiyə müğənniləri tərəfindən də sənətkarlıqla ifa olunmaqdadır”, – deyən Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri bildirib ki, Qəmbər Hüseynli gənc yaşlarında Hüseyn Cavidin “Şeyx Sənan”, Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, Cəfər Cabbarlının “Almas”, “Solğun çiçəklər”, Zeynal Xəlilin “Qatır Məmməd” və bir sıra tamaşalara musiqilər bəstələyib. Sonralar isə bəstəkar tanınmış şair Mirmehdi Seyidzadənin “Qızılquş” poeması əsasında opera yazıb.

Vurğulanıb ki, tədqiqatçılar Qəmbər Hüseynlinin yaradıcılığından çox yazsalar da, bəzən bəstəkarın ömür yolunun çətinliklərindən, əziyyətlərindən az söhbət açırlar. Belə ki, bəstəkar hələ çox gənc ikən Stalin repressiyasının acılarını yaşayıb. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad kimi görkəmli şairlərimizin haqsız yerə məhvinə dözə bilməyən gənc Qəmbərin etirazı onun həbsinə səbəb olub. 1943-cü ildə 10 il həbs cəzası verilən bəstəkar 1947-ci ildə həbsdən azad edilib. Xalq şairimiz Bəxtiyar Vahabzadə ilə bu illərdə tanış olan bəstəkar sonralar dostunun şeirlərinə musiqi bəstələyib. Bəxtiyar Vahabzadə isə bəstəkarın və özünün hansı qorxuların, əzab-əziyyətlərin şahidi olduğunu, repressiya illərinin məşəqqətlərini 1988-ci ildə yazdığı “İki qorxu” poemasında sənətkarlıqla təsvir edib.

Hər bir sənətkarın yaradıcılıq nümunələrinin onun şəxsiyyətindən, istedadından, mənəvi dünyasından və intellektindən doğduğunu deyən Natəvan Qədimova qeyd edib ki, bu mənada, Qəmbər Hüseynli yaradıcılığı Azərbaycan musiqi sənəti inciləri arasında yüksək zirvələrdən birini tutur.

Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm naziri görkəmli bəstəkarın həyat və yaradıcılığına göstərdiyi diqqətə, onun 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında geniş şəkildə qeyd olunmasına görə bütün musiqişünaslar adından Ali Məclisin Sədrinə minnətdarlığını ifadə edib.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov deyib ki, Qəmbər Hüseynlinin mahnı və romansları lirizmi, milli musiqi və poeziya ilə üzvi bağlılığı, yeni intonasiya çalarları ilə fərqlənir. Ümumiyyətlə, vokal janrına aid nümunələr bəstəkarın yaradıcılığında mühüm yer tutur. Qəmbər Hüseynli eyni zamanda simli kvartet üçün pyeslərin, fortepiano üçün variasiyaların və pyeslərin, dram tamaşalarına bəstələnmiş musiqilərin müəllifidir. Uşaqlar üçün yazılmış “Cücələrim” mahnısı ona dünya şöhrəti qazandırıb. Bəstəkarın musiqi üslubu xalq musiqisinin ən qiymətli özəyini – lad, intonasiya, ritm, formayaradıcı xüsusiyyətlərini özündə cəmləşdirir. Onun mahnı-romans yaradıcılığı milli musiqi sənətimizin qiymətli səhifələrini təşkil edir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin, filarmoniyanın xorunun və solistlərinin ifasında Qəmbər Hüseynlinin “Olan oldu”, “Ay işığında”, “Qoy dolanım başına”, “Ömrümün yazısan”, “Muğana ceyran”, “İlk xatirələr”, “Dağlar” və digər mahnıları səslənib. Bəstəkarın dünyanın müxtəlif ölkələrini gəzən “Cücələrim” mahnısı Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs ansamblı tərəfindən ifa olunub və alqışlarla qarşılanıb.

**✍ Rauf ƏLİYEV**

---

*10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsidir*

# Muxtar respublikada tələbə-gənclər hərtərəfli qayğı ilə əhatə olunub



***1996-cı ildən etibarən hər il noyabrın 10-17-si ölkəmizdə Beynəlxalq Tələbə-Gənclər Həftəsi kimi qeyd olunur.***

Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi gənc kadrların hazırlanmasından, onların intellektual inkişafından və cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır.

Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi şəxsiyyət sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan gəncliyinə müraciətlə demişdir: ***“Siz Azərbaycanın bu günü və gələcəyisiniz, sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, inkişaf etdirənlərisiniz, biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycan torpağını yaşatmaq, inkişaf etdirmək üçün hazır olun”.***

Azərbaycan müstəqillik qazandıqdan sonra gənclərlə iş intensiv xarakter almış, bu sahədə zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılmış, 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Sonrakı dövrlərdə də ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün ardıcıl tədbirlər görülmüş, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Bədən tərbiyəsi və idman haqqında” qanunlar qəbul edilmişdir. Bu gün ölkəmizdə gənclərlə iş “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu və 20-yə yaxın normativ-hüquqi aktla tənzimlənir. Ötən dövrdə bu sahənin inkişafı ilə bağlı 5 dövlət proqramı qəbul edilmişdir.

Bu gün dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizin bütün bölgələrində gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər evləri, idman kompleksləri tikilib istifadəyə verilir. Bunun nəticəsidir ki, bugünkü Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellektli toplum kimi yetişir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə ölkəmizi layiqincə təmsil edir.

Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti uğurla davam etdirilir, gənclər siyasətinin bütün istiqamətləri üzrə dövlət proqramları icra olunur. Gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər muxtar respublikada təhsil müəssisələri üçün yüzlərlə binalar tikilmiş, olimpiya-idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara



dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında 2012-ci il 29 mart tarixli fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Qeyd olunan fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmiş, Naxçıvan şəhərində Gənclər Mərkəzi inşa olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun fəaliyyəti təmin edilmişdir. Bu da gənclərin hərtərəfli inkişafı, müxtəlif layihələrin təşəbbüskarı kimi çıxış etməsi, asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

Muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması və fiziki inkişafı daim diqqət mərkəzindədir. Son dövrlər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, stadionların, süni örtüklü mini-futbol meydançalarının, orta məktəblərdə idman zallarının və sadə tipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızda idman sahəsinə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu ilin ötən dövrü ərzində muxtar respublikada yerli və beynəlxalq yarışlar, turnirlər təşkil edilmiş, gənclər və idman sahəsində iki yüzdən çox tədbir keçirilmiş və bu tədbirlərdə 10 mindən artıq gənc iştirak etmişdir. Keçirilən bu tədbirlər gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili istiqamətində mühüm əhəmiyyət daşıyır. Təkcə onu qeyd etmək lazımdır ki, muxtar respublikanın gənc idmançıları 2016-cı ilin müvafiq dövrü ərzində Azərbaycan birinciliklərində 36, Dünya birinciliyində 1, Avropa birinciliklərində 4, beynəlxalq turnirlərdə 42 medal qazanmışlar.

Bu gün Naxçıvan Muxtar Respublikasında aparılan gənclər siyasətinin nəticəsidir ki, Naxçıvan tələbə-gənclərinin səsi dünyanın tanınmış universitetlərindən gəlir. Bu gün yüzlərlə naxçıvanlı tələbə-gənc Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Almaniya, Türkiyə, Cənubi Koreya, Ukrayna və Rusiya Federasiyasının aparıcı ali məktəblərində təhsil alaraq gələcəyin mütəxəssisləri kimi yetişirlər. Göstərilən diqqətin nəticəsidir ki, bu gün muxtar respublikada məşğul əhalinin yarıdan çoxunu gənclər təşkil edir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali məktəblərdə təhsil alan tələbə-gənclərin milli dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ruhunda yetişib formalaşması üçün bu təhsil ocaqlarında genişmiqyaslı tədbirlər keçirilir. Bu il də Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi “10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi”nin qeyd olunması məqsədilə birgə Tədbirlər Planı hazırlamışlar.

Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Gənclərimizin qarşısında idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan nailiyyətlərlə yanaşı, həm də dövlətçilik ənənələrini daim uca tutmaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyümək kimi müqəddəs vəzifələr durur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Daşınmaz əmlakın qeydiyyatı üzrə əhaliyə göstərilən səyyari xidmət davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikanın müxtəlif bölgələrində əhaliyə səyyari xidmət göstərilir. Səyyari xidmət zamanı vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədlərinin – torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələrin, dövlət aktlarının, qeydiyyat vəsiqələrinin daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi və digər xidmətlər göstərilir.*



Vətəndaşların ərizələri yaşadıqları ərazidə qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilir. Qəbul edilmiş sənədlər komitənin rayon qurumları tərəfindən elektron sistemə daxil edilir, texniki sənədlər hazırlanır. Mülkiyyət obyektləri daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınır, çıxarışlar hazırlanır və qısa müddət ərzində yerlərdə vətəndaşlara çatdırılır.

Komitədən verilən məlumata görə, 2015-ci ildə səyyari xidmət vasitəsilə muxtar respublikanın 85 yaşayış məntəqəsindən 1502 müraciət qəbul edilib. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilir. Noyabrın 10-da komitənin səyyari briqadası Şərur rayonunun Çərçiboğan kəndində olub və burada əhaliyə xidmət göstərib. Biz də adıçəkilən yaşayış məntəqəsində olduq, xidmətin səviyyəsi ilə maraqlandıq.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Ruslan Rüstəmov bizimlə söhbətində bildirdi ki, xidmət göstəriləcək ünvanlarda 5 gün əvvəl elanların vurulması təmin edilir və sakinlər arasında maarifləndirmə işləri aparılır.

Səyyari xidmət Çərçiboğan kəndinin mərkəzində təşkil olunmuşdu. Artıq səhər saatlarından xidmətdən istifadə etmək üçün gələnlərin sayı getdikcə artırdı. Kənd sakini Bəbir Qədimov bildirdi ki, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı bu cür xidmətlərin yerlərdə təşkili onları çox sevindirir: "İndi artıq heç bir dövlət qurumunun qapısını döyməyə, sənədlərin hazırlanması üçün vaxt itirməyə ehtiyac qalmır. Daşınmaz əmlakın qeydiyyatı bu xidmət vasitəsilə xeyli sadələşib".

Digər kənd sakini Vəli Əliyev də göstərilən xidmətdən razılığını bildirdi. Dedi ki, daşınmaz əmlakın qeydiyyata alınması indi çox sadədir. Belə ki, hər kəs ona aid olan tikilinin və ya torpaq sahəsinin qeydiyyatı üçün bu cür xidmətdən istifadə edə bilər. Burada çox yüksək səviyyədə xidmət göstərilir. Əmlakla bağlı bizi maraqlandıran suallar cavablandırılır. Çox razıyıq, belə xidmətin təşkilinə görə dövlətimizə minnətdarıq.

Onu da qeyd edək ki, ahıl və sağlamlıq imkanları məhdud olan vətəndaşların müraciətlərinə yaşadığı ünvanda, elə yerindəcə baxılır, həmin şəxsə məxsus torpaq sahəsinin şəhadətnaməsi daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınaraq çıxarışla əvəzlənir.

Günün sonuna doğru Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Ruslan Rüstəmovla əlaqə saxlayaraq öyrəndik ki, gün ərzində 28 nəfər kənd sakininə səyyari xidmət göstərilib.

Əhaliyə səyyari xidmətlərin göstərilməsi muxtar respublikada daşınmaz əmlak bazarının aktivləşməsinə, daşınmaz əmlakın iqtisadi proseslərə cəlb olunmasına böyük təkan verir. Bundan başqa, səyyari xidmətin təşkili yerlərdə vətəndaşların müraciətlərinin operativ şəkildə cavablandırılmasına, vaxta qənaət etməyə, sənədləşmə işlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaradıb.

Qeyd edək ki, analoji tədbir dünən Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində də keçirilib. Gün ərzində 12 nəfər kənd sakini səyyari xidmətdən yararlanıb.

**✍ Kərəm HƏSƏNOV**

### Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 9 dekabr 2016-cı il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15%) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,2452 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 70,60 kv.m yaşayış, 59,21 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Şıxmahmud kəndi | 40.000 | 34.000 | 2.000 |
| 2. | 0,6078 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 7 otaqlı, 126,91 kv.m yaşayış, 169,83 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Yuxarı Uzunoba kəndi | 60.000 | 51.000 | 3.000 |
| 3. | 58,71kv.m ümumi, 46,07 kv.m yaşayış, 12,64 kv.m köməkçi sahədən ibarət 3 otaqlı, 6 nömrəli mənzil | Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 101, 1-ci giriş, 3-cü mərtəbə | 60.000 | 51.000 | 3.000 |
| 4. | 0,1875 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 42,40 kv.m yaşayış, 72,24 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Şıxmahmud kəndi | 40.000 | 34.000 | 2.000 |
| 5. | 69,65 kv.m ümumi, 54,60 kv.m yaşayış sahəsindən ibarət 4 otaqlı mənzil | Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 10 | 70.000 | 59.500 | 3.500 |
| 6. | 0,8339 hektar torpaq sahəsində yerləşən 1553,15 kv.m ümumi, 1094,84 kv.m əsas, 458,31 kv.m köməkçi sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası (ferma) | Babək rayonu, Yuxarı Uzunoba kəndi | 280.000 | 238.000 | 14.000 |
| 7. | Babək rayon Güznüt kəndində "Pircuvar" Kooperativinə məxsus 0,95 hektar torpaq sahəsində yerləşən 1964,53 kv.m ümumi, 1500,53 kv.m əsas, 464,0 kv.m köməkçi sahədən ibarət əmlak kompleksi və 0,2141 hektar torpaq sahəsində yerləşən 4 girişli, 307,85 kv.m əsas sahədən ibarət 1 mərtəbəli qeyri-yaşayış binası | Babək rayonu, Güznüt kəndi | 420.000 | - | 21.000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh "Kapital Bank" ASC-nin Babək rayon filialı AZ83AIIB38030019443060277130 və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun AZ 61 NABZ 12380900000000202944 nömrəli hesabına 5 dekabr 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki № AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
*- ödəniləcək behin qəbzi;*
*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 9 dekabr 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

*Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Baytarlıq təbabəti kafedrasının müdiri Yunis Rüstəmli, həmin kafedranın müəllimi Həsən Qənbərov və tələbələr Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsində beşgünlük klinik təcrübədə və dərslərdə iştirak ediblər.*

## Tələbələr Qars Qafqaz Universitetində təcrübədə olublar

Baytarlıq təbabəti kafedrasının müdiri, baytarlıq üzrə fəlsəfə doktoru Yunis Rüstəmlidən aldığımız məlumata görə, tələbələr əvvəlcə Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsinin fermaları, təcrübə sahələri, laboratoriya və klinikaları ilə tanış olublar, heyvanların saxlanılması, bəslənilməsi və yemlənməsi şəraitinə baxıblar. Tələbələr heyvan anatomiyası, cərrahiyyə və süni mayalanma fənləri üzrə mühazirə və laboratoriya dərslərində iştirak ediblər.

Təcrübə müddətində klinikaya gətirilmiş xəstə heyvanların qeydə alınması, müayinə edilməsi və müalicəsi öyrənilib.

Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri Qars Qafqaz Universitetinin Baytarlıq fakültəsində keçirilən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr olunmuş tədbirdə də iştirak ediblər. Dərsdən sonrakı vaxtlarda müəllim və tələbə heyətinin Qars şəhərinin tarixi abidələri və görməli yerlərinə səyahətləri təşkil olunub.

Səfər zamanı iki universitet arasındakı çoxillik əməkdaşlığın, müəllim-tələbə mübadiləsinin inkişaf etdirilməsi, Naxçıvan Dövlət Universitetinin Baytarlıq kafedrasının laboratoriyaları üçün ləvazimatların alınması barədə razılığa gəlinib.

**Mehriban SULTAN**

## Audio kitabxananın fəal dinləyiciləri mükafatlandırılıb

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyəti olan şəxslərə informasiya texnologiyaları sahəsində bilik və bacarıqlar aşılanır, brayl əlifbasının tədrisi üzrə kurslar təşkil olunur, istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlər keçirilir, hər ay "Könül işığı" adlı brayl jurnalı nəşr edilir, habelə audio kitabxana xidməti göstərilir. Audio kitabxananın kataloqu daim yeni ədəbiyyatlarla dinləyicilərin müraciətinə əsasən zənginləşdirilir. Hazırda kitabxanada 1191 audiokitab mövcuddur və poeziya, xarici ədəbiyyat, audiotamaşa, folklor, milli musiqi və digərləri olmaqla, ümumilikdə, 17 bölmə üzrə 485 dinləyiciyə xidmət göstərilir.

Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə noyabrın 10-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio kitabxananın fəal dinləyicilərinin iştirakı ilə görüş keçirilib. Tədbirdə 5 nəfər görmə məhdudiyyəti olan fəal dinləyiciyə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, mərkəzin "258" nömrəli telefon xətti 24 saat ərzində görmə məhdudiyyəti olan şəxslərin xidmətindədir. Dinləyicilər ev telefon nömrələrini qeydiyyatdan keçirdikdən sonra "258" nömrəli xidmət xəttinə zəng etməklə audiokitabları dinləyə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Yüksək və I dəstənin oyunları keçirilib

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatının yüksək və I dəstənin oyunları keçirilib.***

Naxçıvan Muxtar Respublika çempionatının yüksək dəstəsinin ilk turunu qələbə ilə başa vuran "Naxçıvan" komandası ikinci turda da meydanı qələbə ilə tərk edib. Səfərdə "Babək" komandasının qonağı olan naxçıvanlı basketbolçular 63:36 hesablı qələbəyə seviniblər. "Ordubad" komandası isə doğma arenada culfalı həmkarları ilə üz-üzə gəlib və meydanı 47:43 hesablı qələbə ilə tərk edib.

I dəstənin turnir cədvəlində 3 lider var. Bu turda "Naxçıvan" Universitetinin komandasının qonağı olan "Şahbuz" komandası 2 xalı 48:36 hesablı qələbə nəticəsində əldə edib. Daha bir görüş keçirən tələbələr bu dəfə "Kəngərli" komandası ilə qarşılaşıblar və qələbə qazanıblar – 50:25.

Yüksək dəstə

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 2 | 2 | 0 | 139-66 | 4 |
| 2. | Ordubad | 2 | 2 | 0 | 81-59 | 4 |
| 3. | Culfa | 2 | 1 | 1 | 98-75 | 3 |
| 4. | Babək | 2 | 0 | 2 | 52-97 | 2 |
| 5. | Şərur | 2 | 0 | 2 | 55-131 | 2 |

I dəstə

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Şahbuz | 2 | 2 | 0 | 97-71 | 4 |
| 2. | Sədərək | 2 | 2 | 0 | 46-34 | 4 |
| 3. | "Naxçıvan" Universiteti | 3 | 1 | 2 | 109-101 | 4 |
| 4. | Kəngərli | 2 | 0 | 2 | 36-68 | 2 |
| 5. | Lokomotiv | 1 | 0 | 1 | 59-76 | 1 |

**Qeyd:** S – sıra, O – oyun, Q – qələbə, M – məğlubiyyət, T/F – top fərqi, X – xal.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Abbasova Zemfira Namiq qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 851